Pedaqoji prosesin əsasında duran paradiqmaları dəyişmək, onu yeni məzmunda qurmaq həyat reallığına çevrilir. Belə olan halda müəllim və şagirdlərin müəyyən qaydada və rejimdə həyata keçirilən birgə fəaliyyətlərinin zahiri ifadəsi olan təlimin təşkili formalarının da məzmunu və xarakteri dəyişir. Sosial səbəblər və didaktik sistemlərin inkişafı ilə əlaqədar olaraq meydana gələn, ciddi reqlamentə, sərt qaydalara əsaslanan standart dərslər tədricən öz yerini qeyri-standart dərslərə verir.

Futuroloqlar yazır ki, gələcəkdə məktəblərdə müəllimə ehtiyac olmayacaq. İnsanlar istədikləri məlumatları asanlıqla əldə edəcəklər...

Bütün dövrlərdə məkəb ziya, işıq nur paylayan müqəddəs bir yer, müəllim isə bu missiyanın daşıyıcıları hesab olunublar.Bu ilahi bir missiyadır.Müəllim əməyi Allahın xəlq etmə qüdrətinin bilavasitə davamıdır. Məşhur ərəb mütəfəkkiri İbn Əl Müqəvva yazırdı ki, vücudumuzun havada və qidadan sonra ən çox tələb etdiyi şey məhz təhsil-tərbiyədir. İnsanın kamilləşməsi, şəxsiyyət kimi formalaşması, əqlinin, cisminin və ruhunun bərabər səviyyədə inkişafı müəllimdən asılıdır. Müəllim təhsil-tərbiyəsi ilə məşğul olduğu insanın yaş və fərdi xüsusiyyətlərini, əxlaqi keyfiyyətlərini, fiziki imkanlarını, ümumiyyətlə potensialını nəzərə alaraq onun hisslərinə, şüuruna və davranışına təsir göstırir. Bu təsir nəticəsində insan dəyişir, özünüdərk edir, çevrəsini dərk edir, Allahı dərk edir. Onda əxlaqi, etik, estetik, fiziki keyfiyyətlər formalaşır. Ona görə də müəllimin missiyası həmişə yüksək olub. Hətta valideynlətdən də.Valideyn bizim fiziki bədənimizin yaradıcısı və tərbiyəçisi olduğu halda müəllim ruhumuzun tərbiyəçisidir. Ruh bədəndən üstün olduğu üçün təbii ki müəllim də valideyndən üstündür. Həm müəllim, həm də valideyn bizə həyat bəxş edir: biri adi həyat, o biri layiqli həyat. Hər öyrədən müəllim deyil, kimdən öyrənirsənsə, o, müəllimdir (İbn Xəldun). Məhəmməd Peyğəmbər buyururdu: “Cənnət bağçalarından keçəndə əyləşin”. Əsabələri soruşanda ki, ya Peyğəmbər, cənnət bağçaları deyəndə, nəyi nəzərdə tutursunuz? Peyğəmbər buyurmuşdu ki, müəllim məclislərini. Cənnət bağçalarından necə ki, min gülün, min çiçəyin ətri gəlir, rayihəsi gəlir, müəllim məclislərindən də ədəb, əxlaq, mərifət ətri gəlir.

Müəllim insanın özünü yetişdirir, onun əxlaqını formalaşdırır. Heç bir sivilizasiya, heç bir cəmiyyət əxlaqdan kənarda mövcud ola bilməz. Əxlaq və qəbahət, fəzilət və rəzalət tərəzinin müxtəlif gözlərində yerləşir. Bu gün əxlaq yüksəkdə durduğuna görə cəmiyyət müəllimlərə borcludur. Müəllim ayrı-ayrı insanları və bütövlükdə millətləri qaranlıqdan aydınlığa çıxaran işığa bənzəyir. Bu ədəb, əxlaq və mərifət işığına həmişə ehtiyac olacaq. Bunsuz mümkün deyil...

- Azərbaycan müəllimlərinə sözünüz....

- Fikrimi 23 il Azərbaycan maarifinə rəhbərlik etmiş akademik Mehdi Mehdizadənin sözləri ilə tamamlamaq istərdim. O deyirdi: “Biz müəllimlər hamıya örnək olmalıyıq. Çünki təlim-tərbiyənin başında biz dayanırıq. Böyüyən nəsli həyata biz hazırlayırıq. Ona görə də müəllimin bir nömrəli keyfiyyəti halallıq olmalıdır. Halal olmayan müəllim kamil insan yetişdirə bilməz”.

Müsahibəni apardı:

Nəcəf Nəcəfov,
filologiya üzrə fəlsəfə doktoru,dosent, Əməkdar müəllim, Azərbaycan Yazıçılar Birliyi və Jurnalistlər Birliyinin üzvü

TƏHSİL PROSESİNİN HUMANİSTLƏŞDİRİLMƏSİNİN BƏZİ MƏSƏLƏLƏRİ



Gülşən Orucova,
Bakı şəhəri, Səbail rayonu, 6 nömrəli tam orta məktəbin direktoru, ADPU-nun ümumi pedaqogika kafedrasının doktorantı

Məqalədə müasir dövrdə ümumtəhsil məktəblərində təhsil-tərbiyə prosesinin humanistləşdirilməsinin mahiyyətinə aydınlıq gətirilir, cəmiyyətin ən mühüm mənəvi dəyəri kimi araşdırılır. Təhsil-tərbiyə prosesinin əsas istiqamətlərinin (təhsilin məzmununun, prinsiplərinin, forma və metodlarının, pedaqoji ünsiyyətin və əxlaqi-mənəvi mühitin) humanistləşdirilməsinin nəzəri və praktik məsələləri nəzərdən keçirilir, təhlil və tədqiq edilir.

Açar sözlər: *təhsil, humanistləşdirmə, humanitarlaşdırma, dəyər, kulturoloji yanaşma.*
Ключевые слова: *образование, гуманизацие, гуманитаризацие, ценность, культурологическое отношение.*
Key words: *education, humanization, humanitarization, value, cultural approach.*

Müasir dövrdə ümumtəhsil məktəblərində təhsil-tərbiyə prosesinin humanistləşməsi vacib pedaqoji problemlərdən biridir. Belə ki, böyüyən nəslin həyata hazırlanmasında, onlarda humanist dünyagörüşün formalaşmasında ümumtəhsil məktəblərinin mühüm rolu vardır. Ümumi təhsilin məqsədi dövlətin təhsil sahəsindəki məqsədindən irəli gəlir. Təhsil cəmiyyətin və dövlətin mənəvi, sosial, iqtisadi, mədəni inkişafının əsasıdır. Təhsil ailə, cəmiyyət, dövlət qarşısında məsuliyyətini dərk etməklə yanaşı, başqalarının hüquq və azadlıqlarına hörmət edən, müstəqil, azad, yaradıcı, mədəni, əxlaqi və intellektual səviyyəsi ilə fərqlənən şəxsiyyətin formalaşması məqsədi daşıyır. Pedaqoji ədəbiyyatda ümumtəhsil məktəbinin əsas vəzifələri aşağıdakı kimi şərh edilir:

1) əhalinin təhsilə olan tələbatını ödəmək, fiziki və əxlaqi cəhətdən sağlam nəsil tərbiyə etmək;

2) cəmiyyətin və istehsalatın tələbatları ilə müəyyən olunan biliklər sisteminin mənimsənilməsini təmin etmək;

3) gənc nəsildə elmi dünyagörüşü, siyasi, iqtisadi, hüquqi mədəniyyəti, humanist dəyərləri və idealları, yaradıcı təfəkkürü formalaşdırmaq;

4) gənclərdə fəal vətəndaşlıq mövqeyi, insani ləyaqət, məsuliyyət hissi, demokratik özünüidarə işində iştirak etmək səyləri aşılamaq (1, səh. 122).

Bununla yanaşı, hesab edirik ki, ümumtəhsil məktəbi böyüyən nəslin əqli, əxlaqi, etik, estetik, fiziki və multikultural inkişafını təmin etməli, onda yaradıcı imkanların üzə çıxmasına, özünə və çevrəsinə humanist münasibətin formalaşmasına, fəaliyyətinin (dəyişdirici, idraki, praktiki, kommunikativ, qiymətləndirmə-oriyentasi-

ya) inkişafı üçün sağlam təhsil mühitinin yaranmasına şərait yaratmalıdır. Şagird ümumtəhsil məktəbində aldığı elmi bilikləri ümumiləşdirməyi və biliyə çevirməyi bacarmalıdır.Təlimdə əsas məqsəd alınmış məlumatı ancaq yadda saxlamaq deyil, həm də onun əvvəlki məlumatla qarşılıqlı əlaqəsini başa düşməkdir. Məlumatların, formul və təriflərin mexaniki əzbərlənməsi biliklərin formal mənimsənil-məsinə səbəb olur. Formal mənimsəmə isə insanın əqli inkişafına kömək etmir, yaradıcılığa deyil, doqmatizmə gətirib çıxarır. Biliyi mənimsəmənin səviyyələri (tanışlıq, bilik, bacarıq, vərdiş) təhsil prosesində nəzərə alınmalı, nəticədə onlar dəyərlərə çevrilməlidir. Təhsil həm də kütləviliyi sayəsində ictimai şüuru formalaşdırır və cəmiyyətdə baş verən proseslərə təsir edir. Təhsil demokratiyaya, bərabərliyə və birgəyaşayışa kömək edən vacib sosial institutdur. Təhsilin köməyi ilə mədəniyyətlər ötürülür və transformasiya olunur, sosial funksiyalar dəyişir, yeni statuslar yaradılır və yenilənir. Şagirdlərdə elə bacarıqların formalaşdırılması nəzərdə tutulur ki, istənilən həyat şəraitində və müxtəlif situasiyalarda qarşısına çıxan çətinliklərdən baş çıxara bilsin, aldığı bilik və bacarıqları digər fəaliyyət sahələrinə transformasiya etməyi bacarsın. Məktəbin məqsədi təhsilin məzmununda öz əksini tapır. Məktəbin məqsədlər sistemini müəyyənləşdirməli olsaq aşağıdakı mənzərənin şahidi olarıq: oxumağı öyrətmək; hesablamağı öyrətmək; danışmağı öyrətmək; ünsiyyətdə olmağı öyrətmək; ümumu oxuma (öyrənmə) bacarıqlarını öyrətmək; fənlər üzrə bilik, bacarıq və vərdişləri öyrətmək; intellektual bacarıqları formalaşdırmaq; emosional sferanı inkişaf etdirmək; motivasiya sferasını inkişaf etdirmək; iradə sferasını inkişaf etdirmək; əməkdaşlıq münasibətləri öyrətmək; qanuna tabe olmağı öyrətmək və s. Məktəbin məqsədləri çoxdur və onların sayını artırmaq da mümkündür. Sadaladığımız bu məqsədləri üç böyük qrupda birləşdirmək olar: təlim məqsədləri, tərbiyə məqsədləri və inkişaf məqsədləri. Deməli, tam pedaqoji prosesdə təhsilləndirici, tərbiyəedici, inkişafetdirici və nəzarət-korreksiyaedici funksiyalar vəhdətdə həyata keçirilməlidir. Bu aspektdən yanaşanda təhsil-tərbiyə prosesi insanın zəruri ehtiyaclarının reallaşması mühitidir. Belə bir şəraitdə insan özünü təsdiq edir, özünü aktuallaşdırır, ətraf aləmlə tarazlığı qoruyub saxlayır. Davranış mədəniyyətinin formalaşdırılması pedaqoji prosesin iştirakçılarının seçim hüququnun təminatını və onların daxili potensialının realizə edilməsi üçün pedaqoji şəraitin yaradılmasını vacib hesab edir. Bu məqsədlərin metodoloji əsasını məktəbin müasirləşdirilməsi, yəni humanistləşdirilməsi təşkil edir.

Təhsil prosesinin humanistləşdirilməsi dedikdə nə başa düşülür? Pedaqoji və metodik ədəbiyyatda pedaqoji prosesin humanist-ləşdirilməsi, humanistliyi, humanizmi kimi anlayışlardan istifadə olunur. Bu anlayışlar mahiyyətcə eyni mənanı ifadə edir. "Ensiklopedik fəlsəfə lüğəti"ndə humanizm "tarixən dəyişən baxışlar sistemi" (2, səh. 130) kimi izah edilir. Amerika Humanistlər Assosasiyası (American Humanist Association) humanizm anlayışını "insanın özünü reallaşdırmaq və bəşəriyyətə daha çox fayda vermək məqsədilə etik həyat tərzi keçirməyə qadir olduğunu və buna məcbur olduğunu iddia edən mütərəqqi həyat mövqeyi" (3) kimi şərh edir. Humanizm və humanist münasibətlərin tarixi qədim olsa da anlayış kimi İntibah dövründə elmi dövriyyəyə daxil edilib. Bu dövrün pedaqoji nəzəriyyələri sonrakı dövrlərdə maarifçilik ənənələrinin yaranmasına, humanist pedaqoji ideyaların formalaşmasına güclü təsir edib. İntibah dövrünün pedaqoji fikirdə öz əksini tapan ideyaları "humanism" termini

ilə ifadə olunur. İntibah dövrünün zəka sahibləri hələ XV əsrdə yaratdıqları əxlaqi-mənəvi sərvətin adını ifadə etmək üçün "humanitas" sözündən istifadə edirdilər. "Humanitas" sözü elmilik, özü də dünyəvi elmilik mənasında işlədilirdi. İntibah dövründə yaranan pedaqoji nəzəriyyələr dünyəvi xarakteri ilə seçilirdi. Sonralar həmin dövrü səciyyələndirən F.Engels yazırdı: "Bu, bəşəriyyətin o vaxta qədər gördüyü bütün çevrilişlər içərisində ən böyük mütərəqqi bir çevriliş idi, dahilərə ehtiyac olan, təfəkkür və xarakter cəhətdən, kamillik və alimlik cəhətdən dahilər yetirən bir dövr idi" (4, səh.234). Bu dövrdə pedaqoji nəzəriyyə üçün ən vacib elemenet Allah haqqında təlimdən fərqli olaraq insan haqqında təlimin ön plana çəkilməsi idi. Təbiətdən, məhəbbətdən, incəsənətdən, insan təfəkkürünün nailiyyətlərindən, ünsiyyətdən zövq almağı bacaran humanist insan modeli yarandı. İnsan zəkasının ecazkar qüdrətinə, əqlinin gücünə inam artdı.

Maraqlıdır ki, o dövrdə "təhsil-tərbiyə nəzəriyyəsində humanizmin cücərtiləri milli özünüdərk şəraitində yaranırdı. Humanistlər şəxsiyyətin mükəmməlliyi üçün onun estetik və bədii tərbiyəsinin zəruriliyini başlıca şərt kimi irəli sürür, gözəl və məntiqli danışığı ilə seçilən, öz yerini bilən, insanları arxasınca aparmaq qabiliyyətinə malik insan yetişdirməyi vacib hesab edirdilər (5, səh. 280-281). Kvintilianın pedaqoji ideyalarını əsas kimi götürən İtaliya humanistləri Vitterina de Feltrenin timsalında humanist məktəb modeli yaratdılar. Məktəblilərin harmonik inkişafı üçün məktəbdə humanist müna-sibətlər sistemi hakim idi. Həm klassik (V.Feltre, F.Rable, E.Rotterdamski, M.Mon-ten, T.Kampanella, X.Vives, Y.A.Komens-ki), həm də müasir (K.Rocers, A.Maslou, K.Yapers, C.Dyui, C.Olport) pedaqoqların əsərlərində humanizm həm dünyagörüşü prinsipi, həm də əxlaq prinsipi kimi verilir. Humanizm dünyagörüşü yalnız bir mərkəzdə - insanda birləşir. Əgər humanizmə prinsip kimi, dünyaya baxışlar sistemi kimi yanaşsaq, onda insan onun özünəməxsus sistem yaradıcısı olar (elə buradan da "humanizm", "insanpərvərlik" anlayışları yaranır). Buradan belə nəticəyə gəlmək olur ki, humanizm prinsipdir. O, pedaqoji prosesin bütün prinsiplərini özündə birləşdirməklə onların məzmununu zənginləşdirir. Bu prinsipin əsasında uşaq şəxsiyyətinə humanist münasibət, məhəbbət, hörmət durur. Əxlaqi prinsip kimi verilən humanizm insanın maddi və mənəvi tələbatının ödənilməsinə istiqamətlənmişdir. Humanizm insan haqqında baxışların məcmusunun şüurda əksidir, onun yüksək ictimai vəzifəsi, onun hərtərəfli və ahəngdar inkişafı, insanlar arasındakı münasibətlərin formalaşmasıdır. Humanistlik şəxsiyyətin əxlaqi keyfiyyəti, onun mənəvi zənginliyinin göstəricisidir. Əxlaqi prinsip kimi kollektivdaxili və qarşılıqlı münasibətdə, insan fəaliyyətinin müxtəlif aspektlərində təzahür edir.

Şəxsiyyətə sistemli yanaşma humanizm tərbiyəsinin əsas komponentlərini (humanist hisslər, humanist münasibətlər, humanist keyfiyyətlər) fərqləndirməyə imkan verir. Bu komponentlər davranışda təzahür etdiyinə görə məktəblilərin tərbiyəlilik səviyyəsinə müəyyənedici təsir göstərir. Məktəblilərin tərbiyəlilik səviyyəsini tam müəyyənləşdirmək və dəqiq ölçmək üçün mexanizm yoxdur. Bu gün məktəblərimizdə tərbiyəliliyin nəticələrini üzə çıxarmaq məqsədilə mürəkkəb və çətin əməliyyatlardan istifadə etməklə tərbiyəliliyin səviyyəsi ilə bağlı təxmini təsəvvürlər əldə etmək olar. Məktəbimizdə məktəblilərin tərbiyəlilik səviyyəsini üzə çıxarmaq məqsədilə qiymətləndirmədən istifadə olunur, nəticələr ilkin tərbiyəlilik səviyyəsi ilə müqayisə edilir. İlkin və son nəticələr arasında yaranan

*3

fərq tərbiyə prosesinin səmərəliliyini müəyyən edir.

Humanist hisslər insanın insana, cəmiyyətə münasibətini ifadə edir. "Humanistlik-insanı qəddarlıqdan çəkindirən, uşaqlara, qocalara, xəstələrə, köməyi ehtiyacı olanlara, ümumiyyətlə, bütün adamlara qayğı və nəvaziş, mehriban münasibət bəxş edən ən gözəl əxlaqi keyfiyyətlərdən biridir" (5, səh. 157). Fikrimizcə, müasir məktəb bütövlükdə humanist xarakter kəsb etməlidir. Məktəbin interyerindən pedaqoji prosesin məzmununa qədər hər şey humanist mahiyyət kəsb etməlidir. Təhsilverənlərlə təhsilalanlar arasında münasibətlə yanaşı, həm də təhsilin məzmunu, mahiyyəti, prinsipləri, metodları, təşkili formaları humanistləşdirilməlidir. Vaxtı ilə böyük çex pedaqoqu Y.A.Komenski məktəbi "humanizm" emalatxanası, "insanlıq emalatxanası" adlandırırdı (6, səh. 324). İndiki dövrdə məktəb sözün həqiqi mənasında insanilәşdirilməli, "antroposentrik" olmalıdır. Məktəbdə pedaqoji prosesin mərkəzinə şagird qoyulmalı, təhsilin məzmunu, müəllimlərin fəaliyyəti yüksək dəyər kimi onun şəxsiyyətinin inkişafına istiqamətləndirilməlidir.

Təhsilin humanistləşdirilməsi, ilk növbədə, "şagirdin təlim prosesində bilavasitə inkişaf etdirilməsini, özünü bir şəxsiyyət kimi təsdiq etməsini, özünüreallaşdırması üçün əlverişli şəraitin yaradılmasını" (7, səh. 749) nəzərdə tutur. Şagirdlərdə oxumağı və öy-rənməyə daxili motiv və marağın yaradılması üçün stimullaşdırıcı tədbirlərin həyata keçirilməsini məktəblərdə sağlam və şəffaf təlim mühitinin yaradılması şərtləndirir. Qeyd edək ki, heç də bütün motivlər pedaqoji prosesin gedişinə və nəticələrinə həlledici təsir göstərmir. Psixoloqlar bir çox hallarda öyrənmə motivlərini xarici və daxili olmaqla iki yerə ayırırlar. Uzunillik məktəb təcrübəsi nəticəsində yəqin etmişəm ki, müasir dövrdə öyrənmə prosesində daxili motiv üstünlük təşkil edir. Şagirdlərin özləri təşəbbüskar olmasalar məktəb rəhbərinin, müəllimlərin, valideynlərin öyüd-nəsihətləri, təhrikedici hərəkətləri o qədər də səmərə vermir, bəzi hallarda hətta münaqişəli vəziyyətin yaranmasına səbəb olur. Tədqiqatçı alimlərin "zor gücünə verilən bilik ağlı boğur" –fikri ilə tamamilə şərikəm. Məktəblilərin (eləcə də bütün insanların) motivasiyasının əsas mənbəyi onun özündədir, daxilindədir. Təlim prosesinin səmərəliliyinin və keyfiyyətinin yüksəldilməsində məktəb rəhbərləri və müəllimlər məktəbin və şagirdlərin nailiyyətlərini obyektiv müəyyənləşdirmək məqsədilə real motivləri nəzərə almalıdır. Belə olan halda pedaqoji prosesdə real motivlərə istinad etməklə daha təsirli və yüksək motivlərin (xəyali motivlərin) yaradılması mümkündür. Məktəbin humanistləşdirilməsi elə bir sistemin yaradılmasını nəzərdə tutur ki, burada hər bir şagird azad və bərabər təhsil ala bilsin, özünütəhsil, özünüidarə, özünü reallaşdırma yolu ilə potentsial imkanlarını üzə çıxartsın, özünü təkmilləşdirsin, təsdiq etsin və həm də başqa adamlarla qarşılıqlı əməkdaşlığa hazır olsun. Pedaqoji-psixoloji ədəbiyyatda "humanizm" anlayışı iki mənada (geniş və dar) işlədilir. Geniş mənada insan şəxsiyyətini yaradan dəyərlər sistemini, insanın rifah və xoşbəxtliyini, onun layiqli yaşamaq hüququnu ifadə edir. Məhdud mənada isə Avropada (xüsusilə İtaliyada və Almaniyada) İntibah dövrünün (XIV-XVI əsrlər) mədəni hərəkatını xarakterizə edir. Yuxarıda qeyd etdiyimiz kimi, məhz bu hərəkatın çərçivəsində də "humanizm" termini yaranıb. İlk zamanlar o filoloji aspektdə intellektual məşğələlərin müəyyən növü - ritorikanın, qrammatikanın, poeziyanın, etikanın, fəlsəfənin öyrənilməsi kimi başa düşülürdü.

XX əsrin 90-cı illərində Azərbaycanda məktəbin sosial funksiyası dəyişdi. Yeni

pedaqoji təfəkkür müasir təhsil nəzəriyyəsində aparıcı mövqe qazandı. Ümumtəhsil məktəblərində şagirdin bir şəxsiyyət kimi formalaşdırılmasında təhsilin humanistləşdirilməsi vacib hesab olundu. Pedaqoji-psixoloji arsenala "humanistləşdirmə" anlayışı daxil edildi. Təhsilin humanistləşdirilməsi şagirdlərdə humanist əxlaqi, etik, estetik hisslərin, keyfiyyətlərin formalaşdırılmasını, bunun üçün tələb olunan maddi – intellektual və sosial əxlaqi şəraitin yaradılmasını nəzərdə tutur. Deməli, təhsilin humanistləşdirilməsi, ilk növbədə, müəllimin fəaliyyəti, davranışı, hərəkəti, ünsiyyəti, rəftarı və münasibətlərinin, eləcə də məktəbdaxili idarəetmənin humanist məzmun kəsb etməsini tələb edir. Bu anlayışın elmi dövriyyə və praktik fəaliyyətə daxil edilməsində prof. Ə.Əlizadənin müstəsna xidmətləri oldu. Onun fikrincə, "məktəb həyatının humanistləşdirilməsi yeni pedaqoji təfəkkürün ana xətti kimi özünü göstərir. İnsan amili ancaq bu yolla məktəb həyatına nüfuz edib önəmli pedaqoji məna kəsb edə bilər" (8, səh. 30).

Dünyanın humanist dərki insan şəxsiyyəti ilə bağlıdır. Şəxsiyyətin inkişafı isə mürəkkəb prosesdir. Bu prosesdə həm kəmiyyət, həm də keyfiyyət dəyişikliyi baş verir. İnkişaf prosesi ziddiyyətlərlə şərtlənir. Elə bu səbəbdən də insanla, onun mənəvi ehtiyacı ilə bağlı olan, dialoji mədəniyyət prosesində üzə çıxan humanizm anlayışı da mürəkkəb olmaqla yanaşı, həm də çoxparametrli hadisədir. O ümumsosial səviyyədə bəşəriyyətin mənəvi tərəqqisinin, ruhi inkişafının məqsədi və kriteriyası kimi çıxış edir. Əgər problemə birinci aspektdən yanaşsaq, aydın olar ki, humanizm, insanın (həm də insanlıq tarixinin) öz inkişafında can atdığı ən yüksək mənəvi idealdır. Deməli, bəşəriyyətin inkişaf tarixində humanist münasibətlərin inkişafı insanın özünün inkişafı kimi başa düşülür. İdeal kimi isə əxlaqi borcun və insani dəyərlərin vəhdəti kimi dərk edilir.

"Humanistləşdirmə" anlayışı "humanizm" və "humanistlik" anlayışlarından törəmədir. O problemin konstruktiv aspektini, dəyərlərin sisteminin yüksək mərhələsini ifadə edir. Humanistlik Azərbaycan dövlətinin təməl prinsiplərindəndir, dövlət siyasətində öz əksini tapır, qanunlarda təsbit olunur. Humanislik "Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu"nda təhsil siyasətinin əsas prinsiplərindən biri kimi verilir. Təhsil Qanununda "humanistlik – milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquqları və azadlıqlarının, sağlamlığın və təhlükəsizliyin, ətraf mühitə və insanlara qayğı və hörmətin, tolerantlıq və dözümlülüyün prioritet kimi qəbul olunması" (9) kimi şərh edilir. Dövlət siyasətinin humanist mahiyyəti, hər şeydən əvvəl, cəmiyyət üzvlərinin bir-birinə humanist münasibətində və dövlətin cəmiyyətin humanistləşdirilməsinə yönəldilmiş layihələrin icrasına dəstək verməsində öz əksini tapır.

Pedaqoji-psixoloji ədəbiyyatda ümumtəhsil məktəbində təlim-tərbiyə prosesinin humanistləşdirilməsi ilə bağlı müxtəlif nöqteyi-nəzərlər vardır. Tədqiqatçıların bəziləri hesab edir ki, təlim və tərbiyə prosesinin humanistləşdirilməsi müəllim tərəfindən "şagird şəxsiyyətinin "unikallığının" qəbul edilməsi, qayğı göstərilməsi, hər kəsdə "şəxsi inkişafın açarının" olmasına inamla bağlıdır. Bu ideyanın tərəfdarları daha çox K.Rocersin şəxsiyyətyönümlü təhsil konsepsiyasına istinad edirlər. Bu konsepsiyaya görə, "məktəb şagirdi dünyaya uyğunlaşma-

ğı və dünyaya uyğun dəyişməyi öyrətməlidir. Bu da fərdin şəxsi axtarışları nəticəsində əldə olunan həyatı bacaraqlara əsaslanan davamlı biliklərin olmasını tələb edir (10, səh. 22). Onun təhsil konsepsiyasında insana inam, insanın özünütəsdiqi, özünüreallaşdırması, özünüdərk prosesi və azadlığı mühüm yer tutur. Onun fikrincə, pedaqoji prosesdə diskussiya yolu ilə kompromis variantlar tapmaqla, qarşılıqlı güzəşt yolu ilə münaqişələri asanlıqla aradan qaldırmaq olar. Digər bir qrup tədqiqatçı alim isə təhsil-tərbiyə prosesinin humanistləşdirilməsinin əsas yolunu təhsilin humanitarlaşdırılmasında görürdülər. Onların fikrincə, humanitarlaşdırma yolu ilə şagirdin təfəkkürünü, mənəvi aləminini inkişaf etdirmək, həyata münasibətini dəyişmək, mədəni (emosional, mənəvi və estetik) zənginliyə qovuşdurmaq mümkündür. Bu da uşağın insanlara, özünə və işə münasibətinin formalaşmasını təmin edir. Humanitarlaşdırma təhsilin məzmununda ciddi dəyişikliyi tələb edir. Təlim prosesində şagirdlərin əqli, əxlaqi və ruhi inkişafına istiqamətlənmiş humanitar məzmun humanist hisslərin yaranmasını təmin edir. Araşdırma zamanı belə qənatə gəldim ki, keçən əsrin 70-80-ci illərində və müasir dövrdə Azərbaycanda və Rusiyada təhsilin humanistləşdirilməsi ilə bağlı aparılan diskussiyaların məğzində akademik Ş.Amonaşvilinin ideyaları dayanır. Onun rəhbərliyi altında keçən əsrin 60-70-ci illərdə Gürcüstan məktəblərində yeni məzmunlu eksperimentlər aparılmağa başlandı. 1986-cı ildə "Əməkdaşlıq pedaqogikası" manifesti qəbul edildi. Görkəmli pedaqoq alim V.A.Suxomlinskinin nəzəri fikirləri, Rostov, Lipetsk müəllimlərinin təcrübəsi Azərbaycanda özünə yer aldı. Ş.A.Amonaşvili hesab edir ki, pedaqoji prosesin humanistləşdirilməsi şagirdlərə "məyusluqdan daha çox uğur, kədərdən daha çox sevinc, konfliktlərdən daha çox birlik, ədəbsizlikdən daha çox tərbiyəlilik, yerində saymaqdan daha çox yaradıcılıq" gətirir. Pedaqoji prosesin humanistləşdirilməsinin açarını o şagirdlə müəllimin mənəvi birliyində görürdü. Bu o deməkdir ki, təlim-tərbiyə prosesində şagirdlərin emosional sferasını inkişaf etdirmək məqsədilə müxtəlif stimullaşdırıcı tədbirlərin həyata keçirilməsi, həvəsləndirici situasiyaların yaradılması vacibdir. Motivasiya proqram-məqsədli yanaşmaların arsenalında çoxsaylı stimullaşdırıcı situasiyalar var ki, onlar da məktəblilərdə emosionallığa və mənəvi inkişafa təkan verir. Təlim-tərbiyə prosesinin iştirakçılarının əməkdaşlığı pedaqoji prosesin humanistləşdirilməsinin vacib şərtidir.

Humanizm mənəvi dəyər kimi cəmiyyətdə əxlaqi münasibətlərin təzahürünün bir forması kimi çıxış edir. Deməli, humanizm həm mənəvi dəyərdir, həm əxlaq normasıdır. Məzmunu bilmədən normanı yerinə yetirmək mümkün deyil. Təhsilin humanistləşdirilməsi pedaqoji prosesin mənəvi əsasıdır. Bu, yaradıcı təlim fəaliyyətinin, dərketmənin və ünsiyyətin fəal subyekti kimi şagirdin şəxsiyyətinin inkişafına yönəlmiş prosesin pedaqoji-psixoloji xarakteristikasıdır.

Humanistləşdirmə cəmiyyətin inkişafının sosial pedaqoji dəyərlərini, mənəvi-psixoloji əsaslarını, pedaqoji prosesin dəyər aspektlərini xarakterizə etdiyindən təlim-tərbiyə prosesinin humanistləşdirilməsi məktəb həyatında humanist prinsiplərin tədbiqini zəruri edir. Elmi-pedaqoji ədəbiyyatda pedaqoji dəyərlər üç qrupa bölünür:1) sosial-pedaqoji dəyərlər; 2) qrupun pedaqoji dəyərləri; 3) şəxsiyyətə xas olan pedaqoji dəyərlər (1, 68). Birinci qrup dəyərlər cəmiyyətin təhsil sahəsində fəaliyyətini tənzimləyən ideyaların, normaların, qaydaların, ənənələrin məcmusu kimi xarakterizə olunur. İkinci qrup dəyərlər qrupun pedaqoji dəyərlərini (pedaqoji fəaliyyəti nizama salan və istiqamətləndirən normaları ideyaları və konsepsiyaları) ehtiva edir. Üçüncü qrup dəyərlər müəllimin şəxsiyyətinin məqsədi, motivləri, idealları və dünyagörüşünün digər xarakteristikalarını əks etdirir. Özünü və başqalarını inkişaf etdirmək müəllimin pedaqoji fəaliyyətinin əsasını təşkil edir. Pedaqoji fəaliyyətin məqsədi konkret motivlərlə ifadə olunur. Belə olan halda motivasiya humanistləş-dirmənin texniki əsası kimi çıxış edə bilər.

Şəxsiyyətin inkişaf istiqamətləri ilə bağlı maraqlı araşdırmaları olan, Azərbaycan ictimai-pedaqoji fikir tarixində şəxsiyyət və onun inkişafı problemini elmlər doktoru dissertasiyası səviyyəsində araşdıran Ə.Ağayev təhsil-tərbiyənin humanist prinsiplərindən bəhs edərkən mövcud təsnifata şəxsiyyətin fasiləsiz inkişafı prinsipini əlavə edir. Təlim prosesində şəxsiyyətin fasiləsiz inkişafı o zaman təmin olunur ki, o inkişafın aktual səviyyəsinə deyil, yaxın zonasına yönəldilmiş olsun. L.S.Vıqotskinin əsaslandığı qanunauyğunluğa görə təhsil-tərbiyənin məqsədi və metodları uşağın çatdığı inkişaf səviyyəsinə deyil, həm də onun "yaxın inkişaf zonasına" müvafiq olmalıdır. Ancaq bu səviyyə şagirdin inkişafı haqqında tam təsəvvür yaratmır. Təhsil-tərbiyə prosesinin vəzifəsi "yaxın inkişaf zonası" yaratmaqdır ki, sonradan o aktual inkişaf zonasına çatsın. Bundan sonra onun qarşısında yeni inkişaf zonası yaransın. Bu vəziyyət bütün tədris illərində təkrar olunmalıdır. Bu yanaşmanın mahiyyəti ondan ibarətdir ki, təlim prosesində təhsilverənlərlə təhsilalan-ların əməkdaşlığı elə qurulmalıdır ki, təhsilalanları ən yüksək intellektual səviyyəyə qaldırmaq, təqlidin köməyi ilə mənimsədikləri biliyi bacarığa çevirmək mümkün olsun.

Uşağın yaş və psixoloji xüsusiyyətləri ilə bağlı olan inkişaf prosesinə digər amillərlə yanaşı, milli və ümumbəşəri mədəniyyət güclü təsir göstərir. Bu qanunauyğunluq təhsilin məzmununun müəyyənləşdirilməsində kulturoloji yanaşma prinsipinə əməl etməyi tələb edir. Müasir dövrdə böyüyən nəslin tərbiyəsində özünü göstən qüsurların çoxu onlarda humanitar mədəniyyətin olmaması ilə bağlıdır. Təhsilin məzmununda kulturoloji yanaşmanın nəzərə alınması insanlarda humanitar mədəniyyətin yüksəlməsini şərtləndirir. İnsandakı mövcud mədəniyyət və dəyərlər ümumbəşəri mədəniyyətlə harmoniyada daha intensiv inkişaf edir. Mədəniyyət insanı fəaliyyətə həvəsləndirir. İnsanın fəaliyyəti nə qədər rəngarəng və məhsuldar olarsa peşə mədəniyyətinin mənimsənilməsi də bir o qədər səmərəli olur.

"Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nda, "Azərbaycan Respublikasının milli iqtisadiyyat perspektivi üzrə Strateji Yol Xəritəsi"ndə humanist dəyərləri mənimsəyən insan kapitalının bilik və innovasiyalara əsaslanan inkişafı prioritet təşkil edir. Azərbaycan Respublikasında təhsilin bütün pillə və səviyyələri insan kapitalının inkişafı çağırışlarına cavab verməyə istiqamətlənib. Ümumtəhsil məktəbləri ilə bağlı Milli Kurikulum təsdiq olunub. Yeni Milli Kurikulum Çərçivəsi hazırlanır. Dünyanın mütərəqqi təhsil ənənələri

əsasında millətin övladlarının intellektual, mənəvi və ruhi inkişafını təmin edə biləcək məzmun formalaşdırılıb. Ümumtəhsil məktəblərində verilən məzmun şagirdlərdə dünyanın inteqrativ mənzərəsini yaratmaqla yanaşı, onlarda yüksək dəyərlər formalaşdırmalıdır. Bu, ali bir məqsəddir, millətin ümumi inkişafına hədəflənib. Ümumtəhsil məktəblərində pedaqoji prosesin keyfiyyətinin yüksəldilməsində, müəyyənləşdirilən məzmunun realizə edilməsində, humanist və demokratik təhsil mühitinin yaradılmasında, fikrimizcə, aşağıdakı eyni əhəmiyyətli prinsiplərə əməl etmək zərurəti yaranır:

1) təhsilin məzmununa kulturoloji yanaşma prinsipi;

2) təhsil prosesinin forma və metodlarının humanistləşdirilməsi prinsipi;

3) pedaqoji ünsiyyətin humanistləşdirilməsi prinsipi;

4) məktəbdə əxlaqi-mənəvi və fəaliyyət mühitinin humanistləşdirilməsi prinsipi.

Fikrimizcə, məktəb həyatının humanistləşdirilməsi bu prinsiplərin kompleks tətbiqindən asılıdır. Birinci prinsipin reallaşdırılması təhsilin məzmununun humanitarlaşdırılmasını, milli və bəşəri, ictimai və şəxsi dəyərlərin vəhdətini, ikinci prinsipin reallaşdırılması şəxsiyyətin tərbiyəsinin və özünüinkişafının birliyini, təhsilin diferensiallaşdırılması və fərdiləşdirilməsini, tədris prosesinin rasional və emosional komponentlərinin birliyini və qarşılıqlı əlaqəsini, təlim prosesində monoloqlara deyil, dialoqlara üstünlük verilməsini, üçüncü prinsipin reallaşdırılması tədris prosesində müəllim və şagirdin mövqeyinin bərabərləşdirilməsini, pedaqoji prosesin iştirakçılarının əməkdaşlığını, müəllimin yüksək ünsiyyət mədəniyyətinə malik olmasını, dördücü prinsipin reallaşdırılması isə məktəbdə mühitin estetikləşdirilməsini, tərbiyəedici mənəvi mühitin formalaşdırılmasını, sosial-pedaqoji şəraitin yaradılmasını nəzərdə tutur.

Ənənəvi təhsil sistemində bu komponentlərə və onların qarşılıqlı əlaqəsinə ciddi əhəmiyyət verilmirdi, bəzi hallarda passiv qavrama üstünlük təşkil edirdi. Şagirdlər diqqəti daha çox müəllimin monoloq şəklində söylədiklərini əzbərləməyə yönəldilirdi. Şagirdlər çox hallarda öyrənmə, tapma, kəşf etmə sevincini yaşamırdılar. Məktəb həyatının humanistləş-dirilməsində bu, çox vacib məsələdir. Şagird öyrənmənin emosiyasını, həyacanını yaşayanda, prosesin tamhüquqlu üzvü olanda mənimsəmə prosesi asanlaşır. Yuxarıda sadaladığımız prinsiplərlə bərabər təlim-tərbiyə prosesinin humanistləşdirilməsində öyrətmə və öyrənmə fəaliyyətinin müsbət motivasiyalaşdırılmasına, təhsil prosesinin iştirakçılarının şəxsi təcrübəsindən istifa-dəyə, pedaqoji prosesinin rasional və emosional komponentlərinin birliyi və qarşılıqlı əlaqəsinə xüsusi diqqət yetirilməsi vacibdir. Humanistləşdirmə prosesində bu prinsiplərin nəzərə alınması şagird şəxsiyyətinin potensial imkanlarının üzə çıxmasında əhəmiyyətli rol oynayacağı şübhə doğurmur.

Təhsil sisteminin formalaşmasında ictimai-tarixi şərait mühüm rol oynayır. Təhsildəki tendensiyalar dövlətin sosial-iqtisadi və siyasi həyatının təzahürü, ictimai sistemin tələbləri ilə bağlıdır. Bu yanaşmanı metodoloji əsas kimi götürsək, təhsilin humanistləşdirilməsinin obyektiv (insanların təhsil səviyyəsi, texnokratlaşma və humanist insan, siyasi azadlıq və humanist münasibət) və subyektiv (prosesin subyektləri, mənəvi istehsal məhsulları, məktəbin inkişaf proqramı, təhsilin məzmunu, təhsil texnologiyaları, müasir dərsin strukturu, təlim-tərbiyə prosesinin təşkili) amillərini müəyyənləşdirə bilərik.

Rəyçi: prof. F.Rüstəmov

İstifadə edilmiş ədəbiyyat

1. Paşayev Ə., Rüstəmov F. Pedaqogika. Bakı: Elm və təhsil, 2012.
2. Философский энциклопедический словарь. М., 1983.
3. https://americanhumanist.org/what-is-humanism/
4. Rüstəmov F. humanist pedaqogika, yoxsa pedaqogikada humanizm? // Azərbaycan məktəbi, 2017, №5.
5. Qaralov Z. Tərbiyə. I cild. Bakı: Pedaqogika. 2003.
6. Komenski Y. Böyük didaktika. (Elmi redaktoru, tərtibçisi və nəşrə hazırlayanı prof. F.Rüstəmov). Bakı: Elm və təhsil, 2012
7. Rüstəmov F.Azərbaycan pedaqogikaşünaslığı. Bakı: Elm və təhsil, 2016.
8. Əlizadə Ə.Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Ozan, 1998.
9. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. http://edu.gov.az/az/page/72/302.
10. Rogers C.R. The Interpersonal Relationship in the Facilitation of learning //Humanizing Education / Ed. by R.Leeper. Washington, D.C.: National Education Association, 1967. - P. 1-23.

Г.Оруджова

Некоторые вопросы гуманизации учебного процесса

Резюме

Статья вносит ясность на вопросы гуманизации образовательно-воспитательного процесса в современных школах как самой важной духовной ценности общества. Здесь анализируется и исследуется гуманизация основных направлений образовательно-воспитательного процесса (содержание и принципы образования, его методы и формы, педагогическое общение и морально-духовная обстановка)

G.Orujova

Some issues of humanization of the educational process

Summary

The article clarifies the essence of humanization of the educational process in comprehensive schools in the modern era and is being studied as the most important spiritual value of society. Here the theoretical and practical aspects of humanization of the main spheres in education (the content of education, principles of education, forms and methods, pedagogical communication and moral and spiritual environment) are studied and analyzed.